**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**RÜXSARƏ BƏXTİYAR QIZI QULİYEVA**

# AZƏRBAYCAN ALBANİYASININ ƏHALİSİ

**İxtisas: 5503.02 – Vətən tarixi**

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

# A V T O R E F E R A T I

BAKI – 2014

*Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun «Azərbaycanın qədim tarixi» şöbəsində yerinə yetirilmişdir.*

**Elmi rəhbər:**
Tarix üzrə elmlər doktoru **K.H.Əliyev**

**Rəsmi opponentlər:**
AMEA-nın müxbir üzvü
Tarix üzrə elmlər doktoru, professor **V.H.Əliyev**

Tarix üzrə fəlsəfə doktoru **N.D.Zeynalov**

**Aparıcı təşkilat:** Bakı Dövlət Universitetinin «Qədim dünya və orta əsrlər tarixi» kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdindəki tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən D.01.161 saylı Dissertasiya Şurasının «_07_» _05 2014-cü il tarixli iclasında saat «___» olacaqdir.

Ünvan: Bakı- AZ 1143, H.Cavid prospekti, 31.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Elmi Arxivində tanış olmaq olar.

Avtoreferat «___»__________2014–cü ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi,
tarix üzrə fəlsəfə doktoru **C.Ə.BƏHRAMOV**

## I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Azərbaycan tarixşünaslıqda çox böyük maraq doğuran problemlərdən biri də b.e.ə. IV - b.e. 705-ci ilinə qədər mövcud olmuş Albaniya dövlətinin əhalisinin tərkibi ilə bağlı məsələdir. Dünyanın bir çox ölkələri kimi Azərbaycan da tarixən çox millətli bir ölkə olmuşdur. Burada qədim dövrlərdən başlayaraq qafqazmənşəli, türkmənşəli və iranmənşəli xalqlar yanaşı və birgə yaşamışdılar. Albaniyanın sərhədləri, eləcə də bu sərhədlər daxilində yaşayan əhali, xüsusilə də Strabonun qeyd etdiyi 26 tayfa haqqında tarix elmində müxtəlif fikirlər mövcuddur. Məlumdur ki, Pompeyin yürüşü (b.e.ə. I əsr) nəticəsində yunan-roma dünyası Roma ordusunun olduğu ölkələr haqqında yeni informasiyalar əldə edir. Pompeyin yürüşlərindən sonra romalılar Kiçik Asiyada məskunlaşaraq şərq ölkələri-Parfiya, Albaniya, İberiya və digərləri ilə münasibətlər qururdular. Bu münasibətlər nəticəsində əldə edilmiş məlumatlar antik müəlliflərin əsərlərində öz əksini tapmışdır. Bu müəlliflərin alban tayfaları haqqında olan məlumatlarının toplanması və anlizi, onların yaşadığı ərazini, nisbətən etnik mənşəyini müəyyənləşdirməyə imkan verir. Bəhs edilən mənbələrin tədqiqi, Albaniya ərazisində, müxtəlif tayfaların mövcud olması faktını ortaya çıxarır. Bu öz təsdiqini aparılmış arxeoloji qazıntıların nəticələrində də tapır. Belə ki, aparılan arxeoloji qazıntılar zamanı müxtəlif qəbir abidələri aşkara çıxarılmışdı ki, burada da diqqəti çəkən məsələlərdən biri dəfn adətlərinin müxtəlifliyidir. Yəni etnik fərqlər dəfn adətlərində və qəbir tiplərindəki fərqlərdə də özünü göstərir. Burada sadə torpaq qəbirlər, küp qəbirlər, həmçinin çiy kərpic sərdabələr, saxsı təknə qəbirlər, katakomba qəbirlər, daş qutu qəbirlər və s. yayılmışdı.

Qarşıya qoyulan problem xalqımızın etnogenezi məsələsi ilə bilavasitə bağlı olduğundan böyük elmi aktuallıq kəsb edir və elmdə böyük maraq doğuran mövzulardan biridir. Azərbaycan xalqının etnogenezi məsələsi bu gün də öz aktuallığını itirməyən məsələlərdən biridir. Lakin bu günə kimi bir sıra tədqiqatçılar bu mövzuya elmi baxımdan deyil, hansısa bir ideologiya baxımından yanaşmaqda davam edirlər. Digər tərəfdən Ermənistan tərəfindən Azərbaycan Respublikası ərazisinin 20% - nin işğal edilməsi, ümumiyyətlə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları bəhs edilən problemin elmi baxımdan araşdırılmasını bir daha ön plana çəkir. «Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən

etməyi... zəruri edir»[1] Bu baxımdan xalqımızın öz soy-kökü ilə bağlı əsl tarixi həqiqəti bilməsi Azərbaycan tarix elmi qarşısında duran mühüm vəzifələrdən biri, daha dəqiq desək birincisidi. Bu mənada qarşıya qoyulan problemin araşdırılması böyük aktuallıq kəsb edir.

**Tədqiqatın xronoloji çərçivəsi**. Tədqiq olunan problemin xronoloji çərçivəsi e.ə. IV - b.e. VIII əsrinin əvvəllərini, yəni Albaniya dövlətinin mövcud olduğu tarixi dövrü əhatə edir.

**Mövzunun öyrənilmə səviyyəsi**. Albaniyanın tarixinə maraq hələ XIX əsrin I yarısından yaranmışdır. Keçmiş SSRİ məkanında isə problemin tədqiqinə dair ciddi addımlar atılmışdı. Bu barədə I fəsildə ətraflı bəhs edildiyi üçün qısa olaraq məlumat verəcəyik.

Bəhs edilən problemə Fridirix Kruze, A.A.Bakıxanov, A.Yanovski, B.A.Dorn, V.V.Bartold, A.E.Krımski, S.V.Yuşkov, Z.İ.Yampolski, Mirzə Bala Məmmədzadə, V.N.Leviatov, Albaniyanın tarixinə aid ilk ümumiləşdirici əsər yazan K.V.Trever, K.H.Əliyev, A.P.Novoseltsev, Albaniyanın tarixini öz tədqiqat sahəsinə çevirən müəlliflərdən biri olan F.C.Məmmədova, Albaniyanın erkən orta əsr tarixini kompleks şəkildə araşdıran T.M.Məmmədov, Y.B.Yusifov, R.S.Məlikov, erməni müəllifləri M.R.Barxudaryan, S.T.Yeremyan, A.A.Akopyan, A.Ş.Mnatsakanyan, gürcü müəllifləri Q.A.Melikişvili, Q.A.Şanidze və digər tədqiqatçıların əsərlərində də toxunmuşdu.

**Tədqiqatın mənbə bazasını** əsasən qeyd olunan dövrü əhatə edən yazılı qaynaqlar və arxeoloji materiallar təşkil edir. Burada bilavasitə tədqiq olunan dövrü əhatə edən yunan-roma müəlliflərinin əsərlərindən, yerli mənbələrdən və qədim erməni yazılı qaynaqlarından istifadə olunmuşdu. Lakin bununla belə tədqiqatın gedişində bu və ya digər məsələlərlə əlaqədar yeri gəldikcə qədim gürcü, Bizans və Suriya qaynaqlarına da istinad edilmişdi. Tədqiqat işində arxeoloji materiallardan da istifadə olunmuşdu.

**Tədqiqatın məqsəd və vəzifələri**. Problemin mürəkkəbliyini nəzərə alaraq, müxtəlif dilli və dövrlü yazılı qaynaqlardan, arxeoloji materiallardan istifadə edərək Albaniyanın sərhədlərini və etnik tərkibini aydınlaşdırmaq qarşıya məqsəd qoymuşdur. Qarşıya qoyulan məqsədə nail olmaq üçün yerinə yetirilməsi zəruri olan aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- bəhs edilən dövrdə Albaniyanın hüdudlarını dəqiqləşdirmək;

---

[1] H.Ə.Əliyev. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət. Bakı, 2001, s. 50-51

- bütün mümkün yazılı qaynaqlardan və arxeoloji materiallardan istifadə edərək tarixi Azərbaycan ərazisində bəhs edilən dövrdə yerli və gəlmə etnik qrupları müəyyənləşdirmək;

- gəlmə etnik qrupla yerli etnik qrup arasında qarşılıqlı etno-mədəni münasibətləri aydınlaşdırmaq.

**Dissertasiya işinin metodoloji əsasını** obyektiv elmi tədqiqat metodu təşkil edir. Bununla yanaşı, tədqiqatda yazılı qaynaqların və elmi tədqiqat əsərlərinin obyektiv müqayisəli təhlil metoduna və bu təhlildən alınan elmi nəticələrə üstünlük verilmişdi.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiyanın mühüm elmi yenilikləri aşağıdakılardan ibarətdir:

- Vətən tarixşünaslığında bəhs edilən problemin ayrı-ayrı tərəfləri kifayət qədər tədqiqata cəlb olunaraq, ümumi tədqiqat işlərinin tərkib hissəsi kimi araşdırılsa da, ayrıca tədqiqat işi olaraq aparılmamışdı. Məsələn, bəzi tədqiqatçılar qeyd olunan problemi əsasən yazılı qaynaqlar və qismən arxeoloji materiallar əsasında[1], digər qrup tədqiqatçılar[2] əsasən arxeoloji və qismən də yazılı qaynaqlar əsasında, bəziləri isə toponimik materiallar əsasında[3] tədqiq etmişlər.

- Tədqiqatın gedişinə bütün mümkün yazılı qaynaqlar və maddi-mədəniyyət nümunələri, habelə toponimik materialların nümunələri də daxil edilmişdi.

- Dissertasiyanın xronoloji çərçivəsinin iki müxtəlif dövrü, yəni antik və erkən orta əsrlər dövrünü əhatə etməsi də yenidir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti**. Hazırkı dissertasiya işi tədqiq edilən problemə dair xeyli sayda faktiki material və elmi nəticələrlə zəngindir ki, bunlardan da Azərbaycanın qədim tarixi və xalqımızın soykökü problemi ilə əlaqədar yazılan tədqiqat əsərlərində istifadə etmək olar. Tədqiqatın materiallarından ali məktəblərin bakalavr və magistr hazırlığı üzrə Azərbaycan tarixinin ümumi kursunu və Azərbaycanın qədim tarixi üzrə xüsusi kursu tədris edən müəllimlər istifadə edə bilərlər. Tədqiqat işində toplanan materiallar və çıxarılan elmi nəticələr ali məktəblərin kurs və diplom işi yazan tələbələri üçün də faydalıdır.

---

[1] Алиев К.Г. Античная Кавказская Албания. Баку:, 1992

[2] Османов Ф.Л. История и культура Кавказской Албании. ЫВ в. до н. э. – ЫЫЫ н. э. (на основании археологических материалов). Баку, 2006; yenə onun: Материальная культура Кавказской Албании. Баку, 1982.

[3] Гейбуллаев Г.А. К Этногенезу Азербайджанцев, Т. 1. Баку, 1991

**Tədqiqatın aprobasiyası**. Dissertasiya AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun «Azərbaycanın qədim tarixi» şöbəsində yerinə yetirilmiş və şöbə əməkdaşları, habelə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşlarının birgə iştirakı ilə müzakirə olunaraq müdafiəyə tövsiyə edilmişdi. Dissertasiyanın əsas nəticələri Azərbaycan Respublikasının aparıcı dövri nəşrlərində, konfrans materiallarında, xarici ölkələrin dövri nəşrlərində dərc edilmişdi.

**Dissertasiyanın quruluşu**. Dissertasiya giriş, qəbul edilmiş ixtisarların siyahısı, üç fəsil və on yeddi yarım fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## II DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın giriş hissəsində tədqiq olunan problemin aktuallığı, xronoloji çərçivəsi, mövzunun öyrənilmə səviyyəsi, elmi yeniliyi, elmi-praktik əhəmiyyəti və vəzifələri haqqında məlumat verilir.

Dissertasiyanın I fəsli «**Mənbələr və Tarixşünaslıq**» adlanır. Qeyd olunan fəsil tədqiq edilən problemə bilavasitə aid olan yazılı mənbələrin və arxeoloji materialların, habelə elmi-tədqiqat əsərlərinin təhlilini əhatə edir.

Birinci fəslin «**Problemin mənbə bazası**» adlanan ilk yarımfəslində qədim yunan, latın, erməni və yerli alban mənbələrinin ümumi səciyyəsi, tarixi Azərbaycan ərazisində aparılmış arxeoloji tədqiqatların əsas nəticələri öz əksini tapmişdır.

Bəhs edilən problemin araşdırılmasında arxeoloji materialların müstəsna əhəmiyyəti var. Əhalinin etnik müxtəlifliyini yazılı mənbələrlə yanaşı, Albaniya ərazisində aşkar olunmuş arxeoloji mədəniyyətlər də sübut edir. Aparılmış genişmiqyaslı arxeoloji qazıntılar zamanı əhalinin etnik müxtəlifliyini əks etdirən torpaq, küp, təknə, katakomba, daş qutu, çiy kərpic və taxta qutu qəbirləri aşkar olunmuşdu.

Burada maraq doğuran məsələlərdən biri qəbir abidələrinin istər formasına, istərsə də istiqamətinə görə bir-birindən tamamilə fərqlənməsidir. Nekropollardan aşkara çıxarılan materiallar Albaniya ərazisində yaşayan tayfaların etnik xüsusiyyətlərini müəyyən etməyə imkan verir. Bu materiallar forma və növlərinə görə bir-birindən fərqlənir. Buna rəğmən, bəzi nümunələrə müxtəlif tipli nekropollarda da rast gəlinir.

Bəhs edilən problemin araşdırılmasında arxeoloji materiallarla yanaşı, yazılı mənbələr də böyük əhəmiyyət kəsb edir. Heç şübhəsiz ki, problemin araşdırılması üçün mühüm əhəmiyyətə malik olan yazılı qaynaqların bir qrupunu qədim yunan-Roma qaynaqları təşkil edir. Baxmayaraq ki, albanlar haqqında ilk dəfə e.ə. IV əsr hadisələrindən danışılarkən söhbət açılır, lakin antik müəlliflər onlardan e.ə. I əsrdən başlayaraq yazırlar. Burada Miletli Hekatey (e.ə. VI-V əsr) və Herodot (e.ə. 484-425) istisna təşkil edir. Qeyd olunan fəsildə Strabon, Polibi, Siciliyalı Diodor, Dionisi Perieget, Klavdi Ptolemey, Tasit, Böyük Plini, İosif Flavi, Kursi Ruf, Arrian, Dion Kassi və digər antik müəlliflərin əsərləri ilə yanaşı, problemə bilavasitə aid olan qədim erməni və yerli alban mənbələrinə də diqqət yetirilmişdir. Bu mənbələrin sırasına Koryun, Aqafangel, Favstos Buzand, Yegişe, Moisey Xorenli, Lazar Parbesi, Ananiya Şirakasi, Sebeos, Gevond, Moisey Kalankaytuklu, Kirakos Qandzakesi (Gəncəli) və digər müəlliflərin əsərləri aiddir.

I fəslin 2-ci yarımfəsli «**Problemin tarixşünaslığı**» adlanır. Bu yarımfəsildə Albaniyanın əhalisi ilə bağlı məsələlərə toxunan tədqiqat əsərlərinin obyektiv elmi təhlili verilmişdi. Albaniyanın tarixinə maraq hələ XIX əsrin I yarısından etibarən yaranmışdır. Bəhs edilən problemə ilk yanaşanlardan biri Fridirix Kruze olmuşdur. Müəllif, 1835–ci ildə yazdığı məqaləsində Albaniya ərazisində yaşayan tayfalardan bəhs edir[1]. Elə həmin ildə Peterburqda dərc edilən "Qədim Asiya Albaniyası" adlı məqalədə Albaniyanın sərhədlərindən, şəhərlərindən, hidronimlərindən və s. məsələlərindən bəhs olunur[2]. Azərbaycan tarixçilərindən ilk dəfə olaraq A.A.Bakıxanov Albaniyanın sərhədlərinə, onun ərazisində məskun olan tayfalara və s. məsələlərə "Gülüstani–İrəm" əsərində toxunur[3]. Bəhs edilən problemə nisbətən kompleks şəkildə, ilk dəfə antik mənbələrə istinad edərək A.Yanovski yanaşmışdır. Müəllif, "Qədim Qafqaz Albaniyası haqqında" adlı məqaləsində daha çox yaşayış məntəqələrinə və sərhəd

[1] Крузе Ф. О важности Юго – кавказских областей России в отношении антикварном, и о Птолемее, главном писателе в рассуждении географии сей страны // Ж М Н П, 1835. ч. 5 с. 423 – 439
[2] Энсиклопедический лексикон. Т. 1. СПб.: 1835, с. 145
[3] Bakıxanov A.A. Gülüstani – İrəm, Bakı, 1951, 251 s

məsələlərinə diqqət ayırır[1]. Oxşar məsələlərə "Ptolemeyə görə qədim Albaniya" adlı məqaləsində B.A.Dorn da toxunmuşdur[2].

XX əsrin I yarısında da Albaniyanın tarixinin problemləri müxtəlif müəlliflərin tədqiqat mövzusuna çevrilir. Belə müəlliflərdən biri olan V.V.Bartold "Müsəlman dünyası tarixində Xəzəryanı vilayətlərin yeri" adlı əsərində kaspi tayfalarından və albanların Qavqamela döyüşündəki iştirakından bəhs edir[3]. Digər müəllif A.E.Krımski 1934–cü ildə dərc edilən "Şimali, yaxud Qafqaz Azərbaycanının tarixindən səhifələr (Klassik Albaniya)" adlı məqaləsində Albaniyanın sərhədlərini, şəhərlərini və s. məsələləri işıqlandırır[4]. Albaniyanın sərhədləri ilə bağlı məsələyə ətraflı olaraq S.V.Yuşkovun "Qədim Albaniyanın sərhədləri məsələsinə dair" məqaləsində də toxunulur. Müəllif, Qədim Albaniya ərazisinə Şimali Azərbaycanla yanaşı Dağıstanı da daxil edir. Bu ərazidə məskun olan ən çoxsaylı və əsas tayfanın isə qarqarlar olduğunu bildirirdi[5]. Albaniyanın tarixini ilk dəfə araşdıran Azərbaycan tarixçisi Z.İ.Yampolski olmuşdur. Albaniya tarixinə dair bir neçə əsər yazan müəllif, onun etnik tərkibini, ərazisini və digər məsələlərini araşdırmışdı[6].

XX əsrin II yarısından etibarən Albaniya tarixinin araşdırılmasında yeni mərhələ başlayır. Belə ki, əvvəlki dövrlərdən fərqli olaraq problemin tədqiqinə dair kompleks araşdırılmış əsərlər və yeni konsepsiyalar ortaya çıxır. Bu tarixi dövrdə adı çəkilən problemə mühacir Azərbaycan tarixçisi Mirzə Bala Məmmədzadə də toxunur. O, qədim mənbələrə istinad edərək Albaniyanın türk məmləkəti olduğunu qeyd vurğulayırdı[7]. Albaniyanın etnik tərkibi və tarixinin

---

[1]Яновский А. О древней Кавказской Албании. ЖМНП, 1846. ч. 52. с. 97 – 136; 161 – 203.

[2] Дорн Б. Каспий. О походе древних русских в Табарстан. Изд. в проложении к Зап. Академии наук, СПб.: 1875, Т. 26, 718 с.

[3]Бартольд В.В. Место Прикаспийских Областей в истории мусульманского мира. Баку, 1925, с. 5 – 150.

[4] Крымский А.Е. Страницы из истории Северного или Кавказского Азербайджана (классической Албании). Сб.: К деятельности Олъденбурга С.Ф. Ленинград: Изд – во АН ССР, 1934, с. 289 – 305.

[5] Юшков С.В. К вопросу о границах древней Албании // Исторические записки АН СССР, 1937. Т. I, с. 129 – 148.

[6] Ямпольский З.И. Две заметки к трактовке Страбонова текста об Азербайджанской Албании // Изв. АзФАН, 1942, № 7, с. 71 – 74.

[7] Məmmədzadə M.B. Qafqaz Albaniyasında türk Albaniya // "Azərbaycan" jurnalı, 1989 № 10. s. 119 – 129.

məsələləri V.N.Leviatovun da tədqiqat mövzusu olmuşdur[1]. Eyni məsələlər 1958-ci ildə dərc edilən "Azərbaycan tarixi" əsərində də işıqlandırılmışdı[2]. Albaniyanın tarixinə aid ilk ümumiləşdirici əsər K.V.Treverin 1959–cu ildə dərc edilmiş "Qafqaz Albaniyasının tarixi və mədəniyyəti haqqında oçerklər" adlı monoqrafiyasıdır. Əsərdə b.e.ə. IV-b.e. VII əsr, yəni Albaniya dövlətinin mövcud olduğu dövrün bütün tarixi məsələləri tədqiq olunmuşdu[3]. K.V.Treverdən sonra Albaniya tarixinə kompleks şəkildə öz monoqrafiyasında və məqalələrində K.H.Əliyev toxunur[4]. 1979–cu ildə nəşr olunan "Azərbaycan tarixi" əsərində Azərbaycan tarixinin etnogenezində əsas rol oynayan tayfalar sadalanır. Bu əsərdə alban tayfalarının qafqazmənşəli olması diqqətə çatdırılır. Qeyd edək ki, bu fikir sonrakı tədqiqat işlərində təkzib olunmuşdu[5]. Albaniyanın etnik tərkibini, ictimai-iqtisadi və ərazi məsələlərini tədqiq edən A.P.Novoseltsev Albaniyanın müasir Azərbaycanın, indiki Dağıstanın bir hissəsini və Şərqi Gürcüstanın indiki ərazisini əhatə etdiyini bildirirdi[6]. Albaniyanın tarixini öz tədqiqat sahəsinə çevirən müəlliflərdən biri F.C.Məmmədovadır. Müəllif, tədqiqat işlərində Albaniyanın ictimai-iqtisadi, siyasi, ərazi, etnik tərkib və s. məsələlərinə toxunmuşdur[7]. Bəhs edilən dövlətin erkən orta əsr tarixini kompleks şəkildə araşdıran T.M.Məmmədov qədim erməni, Bizans, Suriya, gürcü, ərəb yazılı mənbələrinə və toponimika sahəsindəki tədqiqatlara əsaslanaraq Albaniyada (IV–VII əsrlərdə) türkmənşəli və qafqazmənşəli xalqların yaşadığını göstərirdi[8]. Albaniya ərazisində yaşayan tayfaları sadalayaraq, onların etnik mənşəyinə aydınlıq gətirməyə cəhd göstərən digər bir müəllif Y.B.Yusifovdur. Müəllif, mərkəz və aran rayonlarında türk, Dağıstana yaxın ərazidə isə qafqazmənşəli tayfaların yaşadığını qeyd edirdi[9]. Digər bir tədqiqatçı Q.A.Qeybullayev da Albaniyanın etnik tərkibini araşdıran

---

[1] Левиатов В.И. Азербайджан с V века до н.э. по III век н. э. // Изв. АН Азерб. ССР, 1950, № 1, с. 65 – 92.

[2] Azərbaycan tarixi. 3 cilddə, Məsul redaktor: İ.A. Hüseynov, , Bakı, 1958. I cild, 423 s.

[3] Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании (IV в. до н.э. – VII в.н.э.). Москва – Ленинград, 1959, 389 с.

[4] Алиев К.Г. Античная Кавказская Албания. Баку, 1992. 238 с.

[5] История Азербайджана, Под. Ред. Дж. Гулиева, Баку:, 1979, 304 с.

[6] Новоселцев А.П. Генезис феодализма в странах Закавказья. Москва, 1980, 285 с.

[7] Мамедова Ф. Дж. Кавказская Албания и албаны. Баку, 2005, 798 с.

[8] Məmmədov T. M. Qafqaz Albaniyası ilk orta əsrlərdə, Bakı, 2006. 399 s

[9] Юсифов Ю.Б. Топонимы и этническая история древнего Азербайджана // Проблемы азербаджанской ономастики. Баку, 1987, с. 105 – 112.

müəlliflərdəndi. O, Albaniya ərazisində xatırladılan tayfaları türkmənşəli, qafqazmənşəli və iranmənşəli olmaqla qruplaşdırırdı[1]. 1995-ci ilində çap olunmuş "Azərbaycan tarixi" əsərində Albaniya ərazisində yaşayan tayfalar sadalanmaqla yanaşı albanların dilində türk elementinin olmasına qarşı çıxılırdı və türkmənşəli tayfaların bura IV əsrdə gəldikləri və ölkə əhalisinin dilinin dəyişməsində mühüm rol oynadıqları bildirilirdi. Amma, mənbələrin tədqiqi türklərin Albaniya ərazisinə gəlməsini əvvəlki əsirlərə bağlamağa imkan verir[2]. Əhəməni ağalığı dövründə Azərbaycanın etnik xəritəsini müəyyənləşdirməyə çalışan R.S.Məlikov Albaniya ərazisində yaşayan tayfalara, xüsusən də kaspilərə xüsusi diqqət ayırır[3]. Albaniyanın tarixinin bu və ya digər məsələlərinə erməni tarixçiləri A.A.Akopyanın[4], S.T.Yeremyanın[5], M.R.Barxudaryanın[6], A.Ş.Mnatsakanyanın[7], gürcü müəllifləri Q.A.Melikişvilinin[8], Q.A.Şanidzenin[9] və digərlərinin əsərlərində də toxunmuşdur.

Dissertasiyanın II fəsli «**Ərazi**» adlanır. Bu fəsildə Albaniyanın cənub, qərb, şimal və şərq sərhədləri dəqiqləşdirilir.

Qeyd olunan fəslin 1–ci yarımfəsli «**Cənub sərhədləri**» adlanır. Ən çox ziddiyyət doğuran Cənub sərhədləri haqqında tarix ədəbiyyatında iki müxtəlif fikir mövcuddur. Bu fikirlərdən birinə görə 387–ci ilə qədər Albaniyanın cənub sərhədləri Kür çayı boyunca keçirdi. Yəni Arsax, Uti və Paytakaran (Kür çayının sağ sahili) Ermənistana aid olub, yalnız 387–ci ildən sonra bu ərazilər Albaniyanın sərhədlərinə daxil edilib. Bu ideya M.Çamçyana aiddir. O, bu ideyanı 1784–cü ildə irəli sürmüşdür[10]. Digər fikrə görə isə Arsax, Uti, Paytakaran və Sakasena vilayətləri, yəni Kür çayının sağ sahili Armeniya çarı I Artaşes (b.e.ə. 189-160) tərəfindən işğal

---

[1] Гейбуллаев Г.А. К Этногенезу Азербайджанцев,. Т 1. Баку, 1991, 552 с.
[2] История Азербайджана, Под. ред. И. Алиева, Баку, 1995, 431 с.
[3] Меликов Р.С. Этническая картина Азербайджана в период Ахеменидского владичество (VI – IV в.в. до н. э). Баку, 2003, 196 с.
[4] Акопян А.А. Албания – Алуанак в греко – латинских и древнеармянских источниках. Ереван, 1987, 303 с.
[5] Еремян С.Т. Моисей Каланкайтукский о посольстве албанского князя Вараз – Трдата к хазарскому хакану Алп –Илитверу // ЗИВАН СССР, т. VII, 1939. с.129 – 155.
[6] Бархударян М.Р. История Албании. Т. I. Вагаршапат, 1902. 213 с.; Т. II. Тифлис: 1907, 176 с. (на армя. яз.).
[7] Мнацаканян А.Ш. О литературе Кавказской Албании. Ереван:, 1969, 220 с.
[8] Меликишвили Г.А. К истории древней Грузии. Тбилиси:, 959. 507 с.
[9] Шанидзе А.Г. Новооткрытый алфавит кавказских албанцев и его значение для науки. Зв. ИЯИМК Груз. ФАН ССР, 1938, Т. 4, с. 1 – 68.
[10] Мамедова Ф. Дж. Кавказская Албания и албаны. Баку:, 2005, с. 273

edilmişdir və 387–ci ilə qədər bu çarlığın tərkibində qalmışdır. Belə ki, bu vilayətlər tarixi Alban torpaqları idi. Bu fikrin müəllifi isə K.V.Trever idi[1]. Amma antik mənbələrin [*Strab.* XI, 1, 5; 3, 2; 4, 2; *Plin.* VI, 29] eləcə də yerli sinxron mənbələrin [*Mois. Kalank.* 1, 4] tədqiqi göstərir ki, Albaniyanın cənub sərhədi erməni tədqiqatçılarının iddia etdiyi kimi Kür çayı boyunca deyil, Kaspiana da daxil olmaqla Araz çayı boyunca keçirdi.

II fəslin 2–ci yarımfəsli isə «**Qərb sərhədləri**» adlanır. Albaniyanın qərb sərhədlərinin də müəyyənləşdirilməsi əhəmiyyətlidir. Strabon Albaniyanın sərhədlərini təsvir edərkən göstərir ki, albanlar «... iberlər və Xəzər dənizi arasında yaşayırlar; onların ölkəsi şərqdə dənizlə, qərbdə isə iberlərlə həmsərhəddir» [*Strabo..*XI, 4, 1]. Ümumiyyətlə, Albaniyanın qərbdə İberiya ilə həmsərhəd olması haqda antik müəlliflər eyni fikir söyləyirlər. Amma iki ölkə arasında dəqiq sərhəd xətti haqqında mənbələrin məlumatları ziddiyyətlidir. Plininin məlumatına görə sərhəd Alazan çayı boyunca keçirdi [*Plin.*VI, 29]. Strabon isə Alazan çayını Albaniyanın sərhədi kimi yox, onun daxilində xatırlayır [*Strabo.*XI, 3, 2]. Plutarx və Dion Kassinin məlumatları isə alban–iber sərhədinin təkcə Alazan çayının aşağı axarından qərbdə deyil, eləcə də İori çayından qərbə keçməsini düşünməyə əsas verir[2]. Gətirilən məlumatları qarşılaşdıraraq belə bir nəticəyə gəlmək olar ki, Alazan çayının Kür çayı ilə qovuşağından qərbə uzanan Kambisena vilayəti Alban dövlətinə aiddir. Kambisenanın Albaniyaya daxil olmasını arxeoloji materiallar da təsdiq edir. Alazan çayının qərb sahilində aparılmış qazıntılar Yaloylutəpə mədəniyyətinə aid olan materiallar ortaya çıxarıb[3]. Aydındır ki, Yaloylutəpə mədəniyyəti antik Albaniyanın əhalisi üçün xarakterikdir.

Beləliklə, yazılı və arxeoloji materialların tədqiqi göstərir ki, Albaniyanın qərb sərhədlərini Kambisena da daxil olmaqla Alazan və İori çaylarının yuxarı axarları arasındakı torpaqlar təşkil edirdi.

II fəslin 3-cü yarımfəsli «**Şimal və şərq sərhədləri**» adlanır. Yunan–roma mənbələrinin məlumatına görə qədim Albaniyanın şimal sərhədləri Qafqaz dağlarından keçirdi. [*Strabo..*XI, 4, 1] və ölkə Xəzər dənizinin qərb sahilində, eləcə də, şimalda bilavasitə Sarmatiya ilə

---

[1] Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании (IV в.н.э. – VII в.н.э.). Москва – Ленинград: Изд – во АН ССР, 1959, с. 58

[2] Тревер К.В. Очерки по истории …, с. 97 – 98

[3] Ниорадзе Г. Раскопки в Алазанской долине. // Груз. ФАН СССР, 1940, № 5, с. 116.

həmsərhəd imiş. Şərqdə isə ölkə Xəzər dənizi ilə qovuşur [V, 8, 1; 7]. Albanları Xəzər dənizi sahilində xatırlayan müəlliflərdən Patroklın, Aristobulun, Eratosfenin, Strabonun, Pomponi Melanın, Plininin, Korneli Tasitin, Plutarxın, Klavdi Ptolemeyin və başqalarının adını çəkmək olar. Plini hətta məlumat verir ki, «onların (albanların) qarşısındakı dəniz Alban dənizi adlanır» [*Plin.* VI, 38].

Antik mənbələrin tədqiqi göstərir ki, dövlətin ərazisi şərqdə Xəzər dənizi ilə həmsərhəd olmuşdur. Şimal sərhədləri isə Dərbənddən yuxarıda yerləşən Samur dağ silsiləsindən başlayıb Böyük Qafqazın ətəkləri boyu İori çayının axarlarına qədər uzanırdı.

Dissertasiyanın III fəsli «**Etnik tərkib**» adlanır. Bu fəslin «**Albanlar**» adlanan 1–ci yarımfəslində alban tayfasından bəhs olunur. Bəhs edilən tayfa ilk dəfə olaraq mənbələrdə b.e.ə. IV əsr hadisələri ilə bağlı, II əsr müəllifi Flavi Arrian tərəfindən xatırlanır. Müəllif e.ə. 331–ci ildə Makedoniya və Əhəməni imperiyası arasında baş vermiş Qavqamela döyüşünü təsvir edərkən albanların adını çəkir [III, 11, 4]. Makedoniyalı İsgəndərin dövründə «Alban» məsələsinə digər antik müəlliflər-Qay Plini Sekund (23–79) və Qay Yuli Solinin (e. III əsrinin I yarısı) əsərində də rast gəlinir [VIII, 149; XV, 7]. Qay Plini Sekunddan, Flavi Arriandan və Qay Yuli Solindən gətirilən bu məlumatlar artıq Makedoniyalı İsgəndərin zamanında Alban dövlətinin mövcud olması təsəvvürünü yaradır. Təəssüf ki, bu faktın təsdiqlənməsi üçün kifayət qədər material yoxdur. Həm də adını çəkdiyimiz antik müəlliflərin heç biri «alban dövləti»nin adını çəkmir, sadəcə «albanlar» və «alban çarı» ifadəsini işlədirlər. Bu hər hansı bir tayfa haqqında məlumat da ola bilərdi. Həmin dövrdə albanların müstəqil tayfa və ya tayfa ittifaqının üzvü olduğu məlum deyil. Lakin gətirilən bu parçalardan çıxan əsas nəticə ondan ibarətdir ki, artıq e.ə. IV əsrin sonunda albanlar mövcud idi və Qavqamela döyüşündə III Daranın ordusunda iştirakı onların mühüm siyasi əhəmiyyətindən xəbər verir. Qeyd edək ki, Makedoniyalı İsgəndər zamanında albanların harada yaşamaları ilə bağlı antik mənbələrdə, ən azından adını çəkdiyimiz müəlliflərdə məlumat yoxdur. Antik müəlliflərin sonrakı tarixi dövr haqqında verdikləri məlumatları isə albanların Kür çayının Xəzər dənizinə tökülən hissəsinə qədər, Xəzər dənizi boyunca, Kür hövzəsini əhatələyən Qafqaz dağlarında və Kür çayının orta və aşağı axarı boyunca, xüsusən sol sahili boyunca yaşadıqlarını deməyə əsas verir.

Yazılı mənbələrdən fərqli olaraq arxeoloji materiallar bəhs edilən dövrdə əminliklə Alban dövlətinin mövcudluğunu söyləməyə

əsas verir. Belə ki, arxeoloq İ.A.Babayev arxeoloji və numizmatik materiallara istinad edərək e.ə. IV əsrin sonu-III əsrdə Alban dövlətinin yarandığını qeyd edir[1].

III fəslin 2–ci yarımfəsli «**Kaspilər**» adlanır. Həm antik, həm də qədim Şərq qaynaqlarında bəhs edilən kaspilər Albaniyada, Midiyada, Atropatenada, Əhəməni dövlətinin tərkibində və hətta Misirdə də xatırlanır.

Mənbələrdə Kaspi tayfalarından Albaniya ərazisində müxtəlif yerlərdə bəhs edilir. Belə ki, bu tayfa albanlardan şimalda Qafqaz dağları və Xəzər dənizi arasında (*Strab.* XI. 8. 8; *Pomp.* I. 2. 12; *Dioi Perieg* V v 725-732;), Paytakaranda (*Plini..* VI, 39; *Claudi. Aeli.* XVII, 17, 32–34), bəzi vaxtlarda isə Xəzər dənizinin bütün sahillərində yaşayan əhali kimi göstərilirdi (*Pomp.* 1, 2, 11–12; *Artemid.* 21, 432). Ola bilsin ki, qədim müəlliflər kaspi adı altında Xəzər dənizinin bu və ya digər sahillərində yaşayan əhalini nəzərdə tuturdular. Yəni dənizin adı ilə onun sahilində yaşayan bütün əhalini adlandırırdılar. Bu fikir Bizanslı Stefanın əsərində də öz əksini tapmışdır: O yazır: «Kaspi dənizinin adından Kaspi adı, Kaspi dağları, Kaspi kişiləri, Kaspi ölkəsi və Kaspilər adı yaranmışdır» [*Steph. Byz.*3, 97]. Mənbələrin bu müxtəlif məlumatları kaspilərın geniş ərazidə, yəni şimalda Qafqaz dağları və Kaspi keçidi ilə, cənubda Midiya-Atropatena ilə, cənub-qərbdə Armeniya və şərqdən Xəzər dənizi ilə sərhəd olan ərazidə yaşamalarını deməyə əsas verir.

III fəslin «**Qellər və leqlər**» adlanan 3-cü yarımfəslində qel və leq tayfalarının məskunlaşdığı ərazidən və onların etnik mənsubiyyətindən bəhs edilir. Bu tayfalar haqqında ilk olaraq Strabon və Plutarx məlumat verir. Bu müəlliflər bəhs edilən tayfaları amazonlarla qonşuluqda xatırlayırlar [*Strab.* XI, 5, 1; *Plut. Pomp.* XXXV]. Sonuncular əfsanəvi tayfa hesab olunur və onların yaşadığı ərazi indiyə qədər dəqiq lokalizə olunmayıb. Qellərin və leqlərin əfsanəvi tayfa ilə yanaşı xatırlanması birincilərin həqiqətən mövcud olmasını şübhə altına qoyur, amma Ptolemeyin məlumatları bu tayfaların həqiqətən də mövcud olduğunu göstərir [*Ptol.* V. 8]. Antik mənbələrin məlumatları qel-leq tayfalarını Cənubi Dağıstan ərazisində Qudyal çayı sahilində və Samur çayından cənubda yerləşdirməyə imkan verir.

---

[1] Бабаев И.А. К вопросу о возникновении государства Албании (кавказской) // Изв. АН Азерб. ССР (серия истории, философии и права), 1976, №4. с.40 – 51

III fəslin 4–cü yarımfəsli «**Qarqarlar**» adlanır. Bu tayfa Albaniyanın əsas tayfalarından biri hesab edilir. Qeyd edək ki, antik və erkən orta əsr mənbələrində qarqarlar fərqli məkanlarda xatırlanırlar. Antik mənbələrin məlumatları [*Strabo*. XI, 5, 1] bəhs edilən tayfanın şimal-şərqi Qafqazda əfsanəvi tayfa olan amazonlarla qonşuluqda yaşamasını düşünməyə əsas verir. Orta əsr erməni mənbələri isə başqa nəticələri ortaya çıxarır. M.Xorenli qarqar sözünü üç dəfə-Aranın nəsli olan Qarqar knyazlığı, erməni çarı III Trdat (283-330) ilə şimallılar arasında döyüşün baş verdiyi Qarqar çölü və Qarqar dili formasında–işlədir. Tədqiqatçılar M.Xorenlinin bu məlumatının alban tayfası qarqarlara aid olduğunu bildirirlər[1]. Qeyd edək ki, erməni müəllifinin qeyd etdiyi Qarqar çölü Kür çayının sağ sahilində yerləşirdi[2]. Beləliklə, antik müəlliflərin məlumatlarına istinad etsək qarqarları şimal-şərqi Qafqazın düzənliklərində və dağ ətəklərində yayılmalarını demək olar. İlkin orta əsr erməni mənbələrinə əsaslansaq bu tayfanı Qarabağ düzündə, Kür çayından cənubda və Qarqar çayı hövzəsində lokalizə etmək olar. Qarqar etnonimi ilə bağlı coğrafi adlara, yəni Köndələn çaydan şimalda yerləşən Qərqər kəndi, Gədəbəyin yaxınlığında, Zəyəm çayın mənbəyində yerləşən Qərqər adlı yer, Samur çayının mənsəbində yerləşən Qarqar dağı və Qarabağdan başlanğıcını götürən Qarqar çayı kimi toponimlərə istinad etsək isə bu tayfanı daha geniş ərazidə-cənub-şərqi Qafqazda, o cümlədən, Qarqar çayı hövzəsinə bitişik olan daha geniş ərazidə yayıldığını deyə bilərik.

III fəslin «**Uti-udinlər**» adlanan 5–ci yarımfəslində isə uti tayfalarından bəhs edilir. Bu tayfa bizə Herodotun (e.ə. V əsr), Strabonun (e.ə I əsr–e. I əsri), Qay Plini Sekundun (b.e. I əsri), Klavdi Ptolomeyin (b.e. II əsri), Yevsevinin (b.e. IV əsri), Bizanslı Stefanın, eləcə də erkən orta əsr erməni müəlliflərinin (Aqafangel, Favstos Buzand, Moisey Xorenli) əsərlərindən məlumdur.

Utiləri ilk dəfə olaraq Herodot xatırlayır. Qədim müəllifin məlumatından aydın olur ki, bu tayfanın yaşadığı ərazi Əhəməni imperiyasının XIV canişinliyinə daxil imiş [*Her*. III, 93]. Strabon [*Strabo*. XI, 8, 8], Böyük Plini [*Pliny*. VI, 38–39] və Ptolemey [*Ptol*. V, 8, 23] uti–vitilər haqqında danışarkən Albaniyadan şimalda, Xəzər

---

[1] Алиев К.Г. К вопросу о племенах Кавказской Албании. Исследования по истории культуры народов Востока // Сборник в честь академика И.А.Орбели Москва-Ленинград; 1960. с. 17; Тревер К.В. Очерки по истории…, с. 48 – 49

[2] Тревер К.В. göstərilən əsəri, s. 48 – 49; Акопян А.А. Албания – Алуанак в греко – латинских и древнеармянских источниках. Ереван:, 1987, s. 67 – 68

dənizinin sahilini onların yaşayış yeri kimi göstərirlər. Əlavə olaraq Strabon Xəzər dənizinin cənub sahillərini də utilərin yaşayış yeri kimi göstərir [*Srabo.* XI, 7, 1]. Bu məlumatlar arasında oxşar olan cəhət isə utilərin hər iki halda Xəzər dənizi ətrafında xatırlanmasıdır. Görünür antik müəlliflərin bu yerləşdirməsi həmin müəlliflərin hamısının utilərın yalnız sahilyanı dağlıq ərazidə yaşayan hissəsini tanıyan Patroklın hesabatından istifadə etmələri ilə bağlıdır. Bu tayfanın əsas hissəsi Kür çayının sağ və sol sahilində (Alazan çayının mənsəbinin aşağısında) yaşayırdılar[1]. Sonrakı əsrlərdə «uti» etnik adı qədim tarixçilərin əsərlərində bu tayfanın yaşadığı vilayətin adında–Kür çayının sağ sahili ilə əlaqələndirilən «Otena» «Vitiya» (yunan versiyası) və «Utik» (erməni versiyası) formasında-saxlanmışdır. Utilərin Kür çayı sahilində yaşamasını V əsr müəllifi M.Xorenlinin məlumatı da təsdiqləyir [II, 8, 113]. Antik və erməni müəlliflərinin əsərlərindəki məlumatları ümumiləşdirərək utilərin yaşadığı ərazinin Kür çayından cənuba və Araz çayından qərbə, şimal-qərbdə Sarmatiyaya, cənub-şərqdə Atropatenaya, şərqdə Kaspianaya və Xəzər dənizinə, şimalda Kür çayına qədər olan ərazini tutması nəticəsinə gəlmək olar[2].

III fəslin 6-cı yarımfəsli «**Lpinlər və çilblər**» adlanır. Antik müəlliflərdən lpinləri və çilbləri yalnız Böyük Plini xatırlayır [*Plini* VI, 29]. Bu tayfalar haqqında daha ətraflı məlumata erməni mənbələrində rast gəlinir. Bu mənbələrə Aqafangel, Yegişe, Favstos Buzand, «VII əsr erməni coğrafiyası» və Moisey Kalankaytuklunun «Alban tarixi» əsəri aiddir. Qeyd edək ki erməni mənbələrində lpin və çilb tayfalarının adlarına daha çox Sasanilər əleyhinə baş vermiş üsyanlarla bağlı hadisələrdən bəhs edilərkən rast gəlinir.[3] Bu tayfaları lokalizə etmək üçün isə Moisey Kalankaytuklunun «Alban tarixi» əsərində saxlanmış «684-cü ilin tarixi» adlı hissəsindəki məlumatların müstəsna rolu var. Burada yepiskop İsrailin lpinlərin və çilblərin ölkəsindən keçməklə 681-682-ci illərdə hunlara səfər etməsi ətraflı təsvir olunur [*Moisey Kalan.* II. 39, s. 238-239]. Bu təsvirə, eləcə də

---

[1]Алиев К.Г. Античная Кавказская Албания. Баку, 1992, с. 133; Еремян С.Т. Страна “Махелония” в надписи Кааба – Зардушт // ВДИ, 1967 № 4, с. 51; Манандян Я.А. О некоторых проблемах истории Армении и Закавказья. Ереван: «Армгиз», 1944, с. 13; Марр Н.Я. Избранные работы, Т .V. Москва – Ленинград, 1935, с.. 81 – 82; Тревер К.В. Очерки по истории…, с..46

[2] Меликов Р.С. Этническая картина Азербайджана в период Ахеменидского владичество (VI – IV в.в . до н. э). Баку, 2003, с. 119

[3] Акопян А.А. Албания–Алуанак…, с. 84 – 85

mənbələrdəki digər məlumatlara və tarixi tədqiqatların nəticələrinə əsaslanaraq Böyük Plininin xatırladığı lpinləri və çilbləri Böyük Qafqaz dağlarının cənub ətəklərində, Alazan çayı vadisində, Girdimançay, Ağsu, Pirsaatçay və Sumqayıt çayının yuxarılarında lokalizə etmək olar.

Tarix ədəbiyyatında lbin (lpin) və alban adının eyni olması haqqında fikirlər də mövcuddur[1]. Bu nöqteyi-nəzər həm bu iki tayfanı ərazi baxımından ayıran Plininin, həm də VI əsrdən başlayaraq «Albaniya, Lpini və Çora katolikosluğu»nun adı çəkilən alban katolikoslarının siyahısı ilə ziddiyyət təşkil edir [*Moisey Kalan.* III, 23]. Göründüyü kimi alban katolikoslarının siyahısında üç əsas alban vilayətinin adı xatırlanır. Mənbələrdəki məlumatlar Albaniya ərazisində ayrıca alban və lpin etnik qruplarının olmasını bir daha təsdiq edir.

III fəslin «**Skiflər və saklar**» adlanan 7-ci yarimfəslində skif və sak tayfalarından bəhs edilir. Albaniya ərazisində sakin olmuş tayfalardan biri də skif, sak tayfalarıdır. Tarix elmində çox vaxt skif və sak tayfaları eyni tayfa hesab olunur. Bu zaman Herodot [*Her.* VII, 6], Plini [*Plini* VI, 50] və Siciliyalı Diodorun [*Diog. Sic.* II, 3; 35] sak və skif tayfalarını eyni tayfa hesab etmələri haqqındakı məlumatlari əsas götürülür. Güman ki, skif tayfaları özlərini sak adlandırırdı və ola bilsin ki, antik müəlliflərin bu cür məlumatı da bundan irəli gəlir.

Qədim şərq mənbələrinin məlumatlarından məlum olur ki, e.ə. VII əsrin 70-ci illərində Skif çarlığı yaranmışdır. Skiflər kimmerlərin ardınca e.ə. VII əsrin başlanğıcında Qafqaz dağlarından keçərək Asiyaya hərəkət etmişlər[2]. Herodotun məlumatına görə onlar Cənubi Qafqaza Dərbənd keçidindən daxil olublar [*Her.* 1, 104]. Herodotdan əlavə skifləri Cənubi Qafqazda Ksenofont [*Anab.* IV, 7, 18], Strabon [*Strabo.* XI, 5, 1] və Tasit də [*Tats.* II, 68] xatırlayır.

Qeyd edək ki, skiflərin Azərbaycan ərazisində mövcudluğunu yazılı mənbələrlə yanaşı, toponimik dəlillər və arxeoloji materiallar da sübut edir. Qeyd edilən toponimlərin əsas hissəsini saka elementi təşkil edir. Buna misal olaraq Strabonda 4 dəfə xatırladılan Sakasenanı [*Strabo.* XI, 1, 14; XI, 7, 2; XI, 8, 4; XI, 14, 4] misal göstərmək olar. Həmçinin orta əsr müəllifi, alban tarixçisi M.Kalankaytuklu və erməni

---

[1] Еремян С.Т. Моисей Каланкайтукский о посольстве албанского князя Вараз – Трдата к хазарскому хакану Алп –Илитверу // ЗИВАН СССР, т. VII, 1939, с.. 86; Юшков С.В. К вопросу о границах древней Албании // Исторические записки АН СССР, 1937, т. I, с. 138 – 139

[2] Azərbaycan tarixi. Məsul redaktor: S.S. Əliyarlı, Вакы: Азярбайъан, 1996, s. 44

coğrafiyaçısı Ananiya Şirakasi də alban vilayətləri içərisində Şakaşen vilayətinin olduğunun qeyd edirdi[1]. Strabon, Sakasenanın adının sak tayfalarının işğalından sonra yarandığını bildirirdi [*Strabo.* XI, 8, 4]. Qədim və orta əsr mənbələrindəki məlumata əsasən bu vilayəti Kür çayının orta axarının cənubunda, Gəncə-Qazax zonasında yerləşdirmək olar. Əvvəldə qeyd etdiyimiz kimi skif tayfalarının Azərbaycan ərazisində olmasını arxeoloji materiallar da sübut edir. Belə ki, Şimali Azərbaycanın müəyyən ərazilərində aparılmış arxeoloji qazıntılar yerli arxeoloji materiallardan fərqlənən yeni tapıntılar, «skif» tipli materiallar[2] ortaya çıxarmışdı. Yuxarıda göstərilən yazılı, toponimik və arxeoloji materiallar skif etnik elementinin Azərbaycan ərazisində ən azından e.ə. VII-V əsrlərdə mövcud olmasını bir daha təsdiq edir. Burada diqqəti çəkən məsələlərdən biri arxeoloji materialların, yazılı mənbələrin Skif çarlığını təsvir etdiyi ərazidən tapılmasıdır. Bu fakt Skif çarlığının Azərbaycan ərazisində yerləşdiyini bir daha təsdiq edir.

III fəslin 8-ci yarımfəsli «**Bulqarlar**» adlanır. Azərbaycan ərazisində yaşamış və buradakı toponimlərdə iz buraxmış tayfalardan biri türkmənşəli tayfa olan bolqarlar idi. Bolqarlar Şimali Qara dənizin qədim tayfalarından biri hesab olunur. N.Y.Merpert bolqarların Şimali Qara dəniz sahillərinə gələn türk tayfalarının konkret bir qrupu olduğunu bildirirdi[3]. Bulqar türklərinin Cənubi Qafqaza gəlmələri haqqında ilk məlumat IV əsr Suriya müəllifi Mar Abas Katinaya aiddir. Onun «Ermənistanın ilkin tarixi» adlı kitabı itmiş olsa da erməni müəllifi Moisey Xorenli (V əsr) bu kitabın bəzi fraqmentlərindən öz əsərində istifadə etmişdir[4]. Bununla da Mar Abas Katinanın məlumatları günümüzə Moisey Xorenlinin əsəri vasitəsilə gəlib çatmışdır. Mar Abas Katinanın məlumatlarının elmi dəyəri çox böyükdür. Bu məlumatlardan çıxan əsas nəticə ondan ibarətdir ki, bulqarlar e.ə. II əsrdə Cənubu Qafqaza gəlmiş və Mar Abas Katinanın, ya da ki Moisey Xorenlinin dövrünə kimi da yaşamışlar. Bəhs edilən tayfanın yaşadığı əraziyə gəldikdə isə bu Araz vadisinə, Zəngilan və Ordubad ərazisinə uyğun gəlir. Belə ki, bu ərazidə Vənənd və Vənəndli kəndləri var ki, bu da Moisey Xorenlinin əsərində xatırlanan parçadakı məlumatla (Sonralar Vxındr Bulqar Vəndin gətirdiyi

---

[1] Məmmədov T. M. Qafqaz Albaniyası ilk orta əsrlərdə, Bakı:, 2006, s. 69
[2] Крупнов Е.И. Глиняная головка “скифа” из Закавказья // ВДИ, № 3 – 4, 1940, s. 170
[3] Очерки истории СССР. Кризис рабовладельческой системы и зарождение феодализма на территории СССР III – IX вв. (отв. ред. Б. А. Рыбаков ). Т. II. Москва, с. 553 – 588
[4] Azərbaycan tarixi. Məsul redaktor: S.S.Əliyarlı, Bakı: Азярбайъан, 1996, s. 165

köçkünlər yerləşən (bu torpaqlar) onun adı ilə bağlı olaraq Vənənd adı almışdır. (Bu köçkünlərin kəndləri) bu günə kimi onun (Bulqar Vəndin–Red.), qardaşlarının və sonrakı xələflərinin adlarını daşıyır[1]) üst-üstə düşür. Bundan başqa, Azərbaycanda bulqar tayfalarının adı ilə bağlı digər toponimlər də mövcuddur. Belə ki, Bıləsuvar rayonunda Bolqarçay hidronimi var. Eləcə də Mil-Qarabağ düzündəki Qarvənd, Yağlavənd, Xocavənd, Papravənd (bu toponimlərdəki vənd hissəciyi Bulqar Vəndin adındakı Vənd hissəsinə uyğun gəlir) kimi toponimlər də buna misal ola bilər. Bu toponimlər qədim bulqarların bu yerlərdə yayılıb yaşadıqlarını göstərir.

Tədqiqatçıların fikrincə bulqar türkləri V əsrin II yarısında Qafqazda suvar-sabir türkləri tərəfindən tabe edilərək sonunculara qarışmış, sonralar isə əriyib itmişlər.

Gətirilən dəlillərdən belə bir nəticə çıxır ki, bulqar türkləri hunların Cənubi Qafqaza yürüşlərindən əvvəl, e.ə. II əsrdə bu ərazidə məskunlaşmış və bu onların bir hissəsi Albaniya ərazisində geniş bir arealda yayılmışdır. Bunu Azərbaycan ərazisində mövcud olan toponimlər sübut edir.

III fəslin «**Hunlar**» adlanan 9-cu yarımfəslində hun tayfalarından bəhs edilir. Albanlarla qonşuluqda hunları ilk dəfə Dionisi Perieget (b. e. II əsri) Xəzər dənizi ətrafında yaşayan tayfaları təsvir edərkən xatırlayır [*Dion. Per.* 718-732]. Əksər tədqiqatçılar hunların Xəzər dənizinin qərbindəki ərazilərdə məskunlaşmalarını b.e. IV əsri ilə bağlayırlar. Onda sual ortaya çıxır: b.e. II əsr müəllifinin əsərindəki bu hunlar kimlərdir? Deməli hunlar bu ərazidə IV əsrdən deyil ən azı II əsrdən əvvəl yaşamağa başlamışdılar. Ptolemey də Şimali Qafqazda roskalanlarla qonşuluqda hunları xatırlayır [*Ptol.* III, 5, 10]. Göstərilən məlumatlara istinad edən tədqiqatçılar (məs. N.Y.Merpert) hunların Şimali Qafqaza gəlişini e. I əsri ilə bağlayırlar[2]. Amma nə Ptolemey, nə də Dionisi Perieget bu tayfanın hansı vaxtda gəlməsi haqqında heç bir məlumat vermir. Sadəcə hunların burada yaşadıqlarını qeyd edirlər.

Sonrakı dövrdə hunları III əsr hadisələri ilə bağlı erməni tarixçiləri Aqafangel albanlarla qonşuluqda, Çola (Dərbənd) şəhərindən yuxarıda[3] və IV əsr hadisələri ilə bağlı Favstos Buzand, Albaniyanın şimal-şərqində, maskutların arasında xatırlayır. O, bu

---

[1] «История Армении» Моисея Хор..., с. 55 – 56

[2] Очерки по истории Азербайджана // Изв. АН Азерб. ССР, 1946, № 1, с. 152

[3] Джафаров Ю.Р. Гунны и Азербайджан. Баку: 1985, с. 13

ərazini «Hon torpağı», maskutların çarı Sanesanı isə çoxsaylı hun ordusunun hökmdarı adlandırır [III kitab, 7–ci fəsil]. Bu onu göstərir ki, hunlar tədricən Şimali Qafqazdan Dərbənddən cənubdakı ərazilərə doğru hərəkət edirdi. Hər halda hunlar maskutlar arasında üstünlüyə malik idilər. Bunu Moisey Kalankaytuklunun məlumatı da təsdiqləyir. O, xristian missioneri Qriqorisin maskutların torpağında öldürülməsi haqqında danışarkən «hunların ölkəsi» ifadəsini işlədir [II, 20]. Hunları Albaniyada V-VII əsr erməni müəllifləri də xatırlayır: Bunlara misal olaraq Yegişeni [VII fəsil], Moisey Xorenlini [II kitab, 86-cı fəsil], Gevondu [7-ci fəsil], Sebeosu [III bölmə, 36-cı fəsil] göstərmək olar. Beləliklə, yuxarıda adı çəkilən mənbələrin məlumatı artıq b.e. I əsrində hunların Albaniya ilə əlaqələrinin olmasını ortaya çıxarır və bu tayfanın Azərbaycanın tarixi torpaqlarına gəlişi sonralar da davam etmişdir. Görünür bu tayfa zaman-zaman burada məskunlaşmış və Azərbaycan xalqının formalaşmasında iştirak etmişdir.

III fəslin 10-cu yarımfəsli «**Kəngərlər**» adlanır. Erkən orta əsr mənbələrindən məlum olur ki, Albaniya ərazisində sakin olan türk tayfalarından biri də kəngərlər idi. Kəngərlər iki regionda Albaniyanın qərbində–Armeniya və Gürcüstanla həmsərhəd vilayətdə və Naxçıvanda yaşayırdılar. Kəngərləri Albaniyanın qərbində ilk dəfə V əsr erməni müəllifi Lazar Parbetsi xatırlayır. O, kəngər türklərinin yaşadığı ayrıca bir əyalətin-qavarn kanqaraç[1] adını çəkməklə yanaşı «Kəngər dağı», «Kəngər ölkəsi» ifadəsini işlədir[2]. Qeyd edək ki, Kəngər dağı müasir Ermənistanın Qukasyan rayonunda yerləşir. «Kəngər ölkəsi» isə təsvirə əsasən təxminən müasir Qazax–Ağstafa bölgəsində lokalizə olunur.

Kəngər tayfalarının adına Suriya mənbələrində «hanqaraye»[3] və Mar Abın «Həyatı»nda «kanqaraye»[4] formasında sasanilərə qarşı mübarizə ilə bağlı hadisələr təsvir edilərkən də rast gəlinir. Bu məlumatlar göstərir ki, Cənubi Qafqazın digər xalqları kimi kəngərlər də Sasani zülmünə qarşı hərəkatda fəal iştirak etmişlər.

---

[1]Патканов К.П. Армянская география VII по Р.Х. (приписывавшаяся Моисею Хоренскому). СПб., 1877, с. 52

[2] Кляшторный С.Г. Древнетюркские рунические памятники как источник по истории Средней Азии. Москва:, 1964, с. 304

[3]Ağır vergilər, küllü sayda adamların bıoyük tikinti işlərinə cəlb olunması və s. səbəblərindən 571 – 572 – ci illərdə Albaniya, İberiya və Ermənistanda Sasanilərə qarşı bıoyük üsyan olmuşdur.

[4] Кляшторный С.Г. Древнетюркские рунические…, с. 175 – 176

Kəngərlər haqqında məlumata Cənub Qafqaz mənbələrində də rast gəlinir. «VII əsr erməni coğrafiyası»nda kəngərlər İberiya və Ermənistanın sərhəd zonasında, Göyçə gölündən şimalda[1], XI əsr Gürcü mənbəsi «Kartli səlnaməsində» əvvəlki əsrlərin hadisələri ilə bağlı xatırlanır[2]. Qazax-Ağstafa zonasında kəngərlər adlarını sonrakı dövrlərdə də saxlamışlar və kəngərli adlanırdılar. Kəngərlər Azərbaycanın Qazax-Ağstafa zonasında, yəni erməni tarixçisi Lazar Parbetsinin qeyd etdiyi Gürcüstan sərhədində bütün orta əsr boyu toplum halında yaşamışlar. XVIII əsrdə (1766) Kaxet-Kartli çarının təzyiqi ilə əlaqədar onların çoxu Qarabağ xanlığı[3] və qismən də Şamaxı xanlığı ərazisinə köçməli olmuşdular[4]. Bu tayfa toponimlərdə də öz izini qoymuşdur. Belə ki, Ağdam rayonunda Kəngər dağı və Kəngərli kəndi mövcud olmuşdur.

Əvvəldə qeyd etdiyimiz kimi kəngərlər Naxçıvan ərazisində də yaşayırdılar. Kəngərləri bu ərazidə ilk dəfə Suriya mənbələri 542-552-ci il hadisələri ilə bağlı xatırlayır[5]. X əsr erməni mənbələri də kəngərləri bu ərazidə, daha dəqiq desək Ararat vadisində qeyd edirlər[6]. Kəngərlər Naxçıvanda orta əsrlərdə də məlum idi. Qarabağ xanı Pənah xan onların bir hissəsini köçürüb öz xanlığında yerləşdirmişdir. Ümumiyyətlə, kəngərlərin yaşayış yerləri Araz və Kür çayları arasındakı bölgələrdə daha çox idi. Bunu günümüzə kimi «Kəngər» və «Kəngərli» kəndlərinin qalması sübut edir[7].

Göründüyü kimi türkmənşəli kəngər tayfaları hələ eramızın ilk əsrlərindən Albaniya ərazisində, xüsusən Albaniyanın qərb hissəsində yaşamağa başlamışlar. Belə bir fikir mövcuddur ki, bu tayfa Albaniyaya b.e. I əsrində hunlarla birgə gəlmişlər[8].

III fəslin 11–ci yarımfəsli «**Suvarlar (sabir, suavr) və xəzərlər**» adlanır. Sabir tayfasının Albaniyaya VI–VII əsrlərdə gəldiyi

---

[1] Армянская география VII в. (приписываемая Моисею Хоренскому). Текст и перевод с древнеарм. С присовокуплением карт и объяснительных примечаний издал Патканов К. П. СПб., 1877, s. 52

[2] Меликсет – бек Л. М. Обзор источников по истории Азербайджана вып. II. Баку, 1939

[3] Гейбуллаев Г.А. К Этногенезу Азербайджанцев, т. 1. Баку, 1991, с.. 102

[4] Azərbaycan tarixi. Məsul redaktor: S. S.Əliyarlı, s. 177

[5] Пигулевская Н.В. Мар Аба I (к истории культуры V в.н.э.) // Советское Востоковедение, 1948, т. V, с. 77

[6] История анонимного повествователя Псевдо – Шапух Багратуни. Пер. с древнеарм., предисловие и комментарии М. Н. Дарбинян – Меликян. Ереван: 1971, с. 186

[7] Azərbaycan tarixi. Məsul redaktor: S. S.Əliyarlı., 176 – 177

[8] Кляшторный С.Г. . Древнетюркские рунические…, с. 179

bildirilir[1]. Hesab olunur ki, bütün orta əsrlər boyu Muğanda xatırlanan Beləsuvar (ilk dəfə mənbələrdə XIII əsrdə qeyd edilir)[2], XIV əsrdə Cənubi Azərbaycanda Həmdullah Qəzvininin qeydə aldığı Tutsuvar, XIX əsrdə Quba qəzasındakı Qaleysuvar[3] və Qalasuvar kəndinin adları suvarların tarixi izləridir.

Azərbaycanın toponomikasında iz buraxmış türk tayfalarından biri də xəzərlərdir. Bu tayfaların Albaniya ərazisinə gəlişi təxminən bizim eranın 193-213-cü illərindən başlayır. Erməni tarixçisi Moisey Xorenli qeyd edir ki, «xeyli sayda dağlılar, mən xəzərlərin və basillərin birləşmiş dəstəsini nəzərdə tuturam, öz hökmdarları Vnasep Surxapın rəhbərliyi altında Çola keçidini keçib Kür çayı sahilinə gəldilər və onun bu tərəfinə səpələndilər» [*Moisey Xoren.* II, 65]. Ümumiyyətlə, xəzərlər Albaniya ərazisində, X əsrə qədər müxtəlif vaxtlarda məskunlaşmışlar. Orta əsr ərəb müəlliflərinin əsərlərindən məlum olur ki, xəzərlərin bir hissəsi Sasani şahları[4], sonralar isə ərəb canişinləri tərəfindən Albaniya, Atropatena və Gürcüstan ərazisində məskunlaşdırılmışlar[5]. Məhz bu mənbələrdəki məlumatlara istinad edib xəzər tayfalarının Qəbələdə, Kür çayı hövzəsində, Kür və Araz çayı arasındakı torpaqlarda, Samur çayı və Şabiran arasında yaşadıqlarını demək olar. Toponimik dəlillər bu tayfanı daha geniş ərazidə yerləşdirməyə imkan verir. Belə ki, xəzər etnonimi indiyə qədər Ordubad rayonundakı Xəzəryurd və Lerik rayonundakı Xəzəryaylaq oronimində öz adını saxlayır. Dağlıq Qarabağ ərazisində Xəzərdağ (Hadrutda) oronimi, Füzulidə isə Xəzərdağ dağı mövcuddur.

III fəslin «**Digər tayfalar**» adlanan 12-ci yarımfəslində erməni mənbələrində xatırlanan tayfalardan bəhs edilir. Albanlar, kaspilər, qellər, leqlər, qarqarlar, utilər, çilblər, lpinlər antik mənbələrin xatırladığı tayfaları sırasına daxildir. Erməni mənbələrində isə digər alban tayfalarının adı da çəkilir. Favstos Buzand və Yegişe ondan çox tayfanın adını çəkir. Yegişe bu tayfaları iki dəfə sayır. O, birinci dəfə bu tayfalar haqqında Sasanilərin Çola keçidini möhkəmləndirməsindən bəhs edərkən danışır. Onun məlumatına görə

---

[1] Артаманов М.И. История хазар. Ленинград, 1962, с. 118; Гумилев Л. Древние тюрки. Москва:, 1967, с. 35 – 37; Дьяконов М.М. Очерки истории древнего Ирана. Москва:, 1961, с. 307

[2] Рашид ад – Дин. Дэжами ат – таварих. Баку: 1956, с. 107 – 120

[3] Пагиров Д.Д. Алфавитный указатель к пятиверстной карте Кавказского края. Тифлис, 1913, с. 111

[4] Бцнйадов З.М. Азярбайъан ВЫЫ – ЫХ ясрлярдя. Бакы: 2007, s. 49

[5] Yenə orada, s. 123 – 127

Çola keçidinin müdafiəsi üçün fars və iber qoşunlarından əlavə lpinlərin və çilblərin, həmçinin vat, qluar, xrsan, xeçmatak, pasx, posx və pyukvanların, eləcə də tavasparanların qoşunları səfərbər edildi [*Yegishe.* IV, səh. 94]. Digər yerdə tarixçi yazır ki, Sasani hərbi rəisi Muşkan Nyusalavrut albanların, çilblərin, lpinlərin, xeçmatakların və tavasparların ölkəsi Xibiovanda oldu [*Yegishe.* VI, səh. 129]. Yegişe həmçinin bu tayfaları 459-462-ci ildə baş vermiş üsyan haqqında danışarkən də xatırlayır. Tarixçi məlumat verir ki, üsyan etmiş hökmdar 11 dağlı hökmdarı özünə birləşdirmiş və onların köməyi ilə uzun müddət Sasani qoşunları ilə döyüşmüşdür [*Yegishe.* VII, səh. 198]. Güman ki, bu 11 tayfa müəllifin əvvəlki bölmələrdə qeyd etdiyi tayfalardır. Burada diqqəti çəkən məsələlərdən biri Yegişenin dağlı tayfalarının adını Çola (Dərbənd) keçidi ilə bağlı çəkməsidir. Birinci halda bu tayfalar keçidi qoruyurlar; ikinci halda Muşkan dağlı tayfalarının ərazisində olur. Burada onu daha çox maraqlandıran hunlar tərəfindən dağıdılmış Çola keçidinin möhkəmləndirilməsi idi; üçüncü halda dağlı tayfalarının adları, alban hökmdarının Çola keçidinin müdafiəsini yarması və maskut qoşunlarının ona kömək üçün buraxmasından dərhal sonra çəkilir. Bunlar Yegişede xatırladılan 11 dağlı tayfasının Dərbənd keçidi yaxınlığında yaşaması ehtimalını irəli sürməyə əsas verir. Maraqlıdır ki, Yegişenin hər iki siyahısında birinci lpinlər və çilblər xatırladılır. Bu tayfaların yaşadığı ərazini nəzərə alaraq bütün 11 dağlı tayfasının Dərbənd keçidi ilə Kür çayı arasındakı ərazidə, Albaniyanın şərqində yaşamalarını demək olar.

Favstos Buzand dağlı tayfalarının Maskut hökmdarı Sanasenin VI əsrin 30-cu illərində Armeniyaya hücumunu təsvir edərkən xatırlayır. Müəllifin dediyinə görə Sanasen hunların, paxların, tavasparların, xeçmatakların, ijmaxların, qatların, qluarların, siçblərin, çilblərin, balasiçlərin, yeqersuanların.... bütün qoşunlarını topladı [*Favs. Buz.* III, 7. səh. 14]. Göründüyü kimi Favstos Buzandın siyahısı hunlarla başlayır, balasiç və yeqersuanlarla qurtarır. Sonuncu tayfa mənbələrdə bir daha xatırlanmır. Amma balasiçləri Buzandın özü maskutların hücumunun sonunda yenə xatırlayır. Müəllifin məlumatına görə Sanasenin qoşunlarının qalıqlarını onlar özlərindən qabağa, balasiçlərin ölkəsinə qədər qovdular [*Favs. Buz.* III, 7 səh. 15].

«VII əsr erməni coğrafiyası»nda ləklərin, tapotaranların, alutakanların, xenavların, şilplərin, çilblərin, lpinlərin, şrvan, xsrvan, xelayların, kasbların, puxların, tavasparların, xeçmatakların,

ijmaxların, posxların, pusxların, pyukvanların, baqanların, maskutların adları çəkilir[1].

Erməni mənbələrində xatırlanan bu tayfaların sayı təxminən 20-yə qədərdir. Qeyd edilən mənbələrin məlumatlarına əsasən bəhs edilən tayfalar Dərbənddən cənubda, Albaniyanın şərq hissəsində lokalizə olunur.

Dissertasiyanın **«Nəticə»** hissəsində tədqiqatın əsas müddəaları ümumiləşdirilmiş, aparılan araşdırmalara yekun vurularaq göstərilmişdir ki, Albaniya əhalisi etnik mənsubiyyətinə görə də bir–birindən fərqlənirdi. Bəhs edilən tayfaların ən qədimləri qafqazmənşəli və türkmənşəli olmuşdur. Eramızın ilk əsrlərindən başlayaraq Sasani şahları tərəfindən buraya iranmənşəli tayfalar da köçürülmüşdür.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Qafqaz Albaniyasının əhalisi Azərbaycan tarixşünaslığında. Tarix və onun problemləri. № 4. Bakı, 2008, s. 331-338
2. Qafqaz Albaniyası rus tarixşünaslığında. Azərbaycan Milli Elmlər Akademiyası aspirantlarının elmi konfransının materialları. Bakı, 2008, s. 309-313
3. Azərbaycan Albaniyasının qərb sərhədləri. Doktorantların və gənc tədqiqatçıların XV Respublika elmi konfransının materialları. Bakı, 2011, s. 251-253
4. Alban etnosu konusuna dair. Turan. Cilt: 4, Sayı: 15. Kars, 2012, s. 24-30
5. Azerbaycanda kenger etnosu konusuna dair. VIII Milletlerarası Türkoloji Kongresi. İstanbul, 2013, s. 224-225
6. Albaniyanın Şimal və Şərq sərhədləri. Sivilizasiya. Bakı, 2014, № 2. s.127-130
7. Краткий обзор истории албанского этноса. Гілея. Вып. 82 (№3). Киев, 2014, с. 101-104

[1]Акопян А.А. Албания – Алуанак…, с, 303

**Гулиева Р.Б.**

# НАСЕЛЕНИЕ АЗЕРБАЙДЖАНСКОЙ АЛБАНИИ

## РЕЗЮМЕ

В представленной диссертационной работе исследуется один из важных вопросов древней истории Азербайджана. Работа состоит из введения, трех глав, заключения, списка использованной литературы.

Во введении обоснован актуальность исследования, показана степень изученности темы, дан анализ источников, определены цели и задачи, методологическая основа научного исследования, научная новизна и практическое значение темы.

Первая глава, состоящая из двух параграфов, охватывает письменные источники и археологические материалы, а также произведения научных исследований, которые непосредственно связаны с изучаемой проблемой. В первой подглаве отражена характеристика древнегреческих, латинских, армянских и албанских источников и рассмотрены основные итоги археологических исследований, проведенных на территории Азербайджана. А во втором подглаве даются объективные анализы научно-исследовательских работ, где рассматриваются вопросы, связанные с населением Албании.

Вторая глава, состоящая из трех подглав, посвящена границам Албании. В этой главе уточняются южные, западные, северные и восточные границы Албании по древним греко-римским, а также синхронным местным источников.

В третьей главе, состоящей из двенадцати подглав, рассматривается этнический состав населения Албании и определяются этнические особенности албан, каспиев, гелов, легов, гаргарцев, ути-удин, лпинов, чилбов, скифов, саков, булгар, гуннов, кенгеров, сувар, хазаров и других племен, локализуется места их обитания.

В заключении диссертации подведен итог проведенных научных исследований.

**Guliyeva R.B.**

# THE POPULATION OF AZERBAIJAN ALBANIA

## SUMMARY

The present dissertation work explores one of the important issues of the ancient history of Azerbaijan. The research work consists of an introduction, three chapters, conclusion, lists of literature.

In the introduction is grounded the actuality of the theme, analyzed the degree of the studying, defined aims and problems of the research, shown scientific novelty and opened the theoretical and practical significance of the theme.

The first chapter consisting of two parts, deals with written and archaeological sources, also works of scientific research, concerning studying problem. In the first paragraph has been reflected the general character of the ancient Greek, Latin, Armenian and local Albanian sources and basic results of the archaeological investigations carried in the historical Azerbaijan territory. And in the second paragraph was given an objective scientific analysis of the works of scientific research which touch upon the problem having connection with population of Albania.

The second chapter consisting of three parts, has been dedicated to boundary of Albania. In this chapter defined precisely the South, West, North and East boundaries of Albania.

In the third chapter consisting of twelve parts, are looked through ethnical structure of Albania and has defined ethnical features of the Albanians, Caspians, Gels, Leqs, Gargars, Uti-Udins, Lpins, Chilbs, Skifs, Saks, Bulgars, Huns, Kangars, Suvars, Khazars and other tribes and territory where they lived.

In the conclusion summarized the results of the research.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ им. А.А.БАКИХАНОВА**

*На правах рукописи*

**РУХСАРА БАХТИЯР гызы ГУЛИЕВА**

# НАСЕЛЕНИЕ АЗЕРБАЙДЖАНСКОЙ АЛБАНИИ

**Специальность: 5503.02 – Отечественная история**

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени доктора философии по истории**

**БАКУ – 2014**